# Tibbi mikrobiologiya və immunologiya kafedrasının *2021-2022-ci* tədris ili üçün HESABATI

# Tibbi mikrobiologiya və immunologiya kafedrası hesabat dövründə

| Vəzifə | Say |
|---|---|
| *Kafedra müdiri, professor* | *1* |
| *Professor* | *5* |
| *Dosent* | *8* |
| *Baş müəllim* | *8* |
| *Assistent* | *2* |
| *Baş laborant* | *7* |
| *Laborant* | *2* |
| *Baş preparator* | *4* |
| *Preparator* | *4* |
| *Xadimə* | *1* |
| **CƏMİ** | **42** |



# Hesabat ili ərzində professor-müəllim heyətinin vəzifə ştatı

| S/№ si | Soyad, ad, ata adı | Vəzifə | Elmi dərəcə, elmi ad |
|---|---|---|---|
| 1 | Qədirova Həqiqət Əbdul qızı | professor, kafedra müdiri (0,5/1,0 ştat) | Professor, t.e.d |
| 2 | Ağayeva Emma Müzəffər qızı | professor | Professor, b.e.d. |
| 3 | Əliyev Mehman Həbib oğlu | professor | Professor, t.e.d. |
| 4 | Qurbanov Akif İrzaxan oğlu | Professor (0,5 ştat) | Professor, t.e.d. |
| 5 | Seyidova Gülər Mir Jəfər qızı | professor | Professor , b.e.d |
| 6 | Ağayeva Nigar Ağabala qızı | professor | Dosent, b.ü.f.d. |
| 7 | Zeynalova Səidə Qaraş qızı | dosent (1,0/05 ştat) | Dosent, t.ü.f.d. |
| 8 | Nərimanov Vidadi Əvəz oğlu | dosent | Dosent, t.ü.f.d. |
| 9 | Əliyeva Həyat Mobil qızı | dosent | Dosent, t.ü.f.d. |
| 10 | Cavadov Samir Sabir oğlu | dosent (0,5/1,0 ştat) | Dosent t.ü.f.d. |
| 11 | Qurbanova Sara Fikrət qızı | dosent | Dosent b.ü.f.d. |
| 12 | Bayramlı Ramin Baba oğlu | dosent (-/0,5 ştat) | Dosent t.ü.f.d. |
| 13 | Şxəliyev Fəxrəddin Musa oğlu | dosent | Dosent t.ü.f.d. |
| 14 | Novruzova Mətanət Salman qızı | dosent | Dosent b.ü.f.d. |
| 15 | Muradova Sevda Ağarəhim qızı | baş müəllim | b.ü.f.d. |
| 16 | Talıbova Cəmilə Xalid qızı | baş müəllim (0,5 ştat) | t.ü.f.d. |
| 17 | Hacıyeva Səidə Vaqif qızı | baş müəllim | t.ü.f.d. |
| 18 | Süleymanova Təranə Hafiz qızı | baş müəllim (0,5 ştat) | b.ü.f.d. |
| 19 | Bayramova Ramilə Sədrəddin qızı | baş müəllim | t.ü.f.d. |
| 20 | Mansurova Hafizə Tanırverdi qızı | baş müəllim | t.ü.f.d. |
| 21 | Baxışova Yeganə Arif qızı | baş müəllim | b.ü.f.d. |
| 22 | Hacısoy Yavər Vidadi oğlu | baş müəllim (0,5 ştat) | t.ü.f.d. |
| 23 | Qasımova Məryəm Çingiz qızı | assistent | - |
| 24 | [illegible] | assistent | |

# Kafedranın auditor fondu - 2 mühazirə zalı və 16 praktik məşğələ otağı

- Hesabat ilində kafedranın **butun dərs otaqlarında təmir işləri** aparılmışdır.
- **2-ci mühazirə zalı** yaradılmış və avadanlıqla təchiz edilmişdir.
- **Hər birində multimediya** sistemi quraşdırılmışdır.
- **5 məşğələ otağı** müasir tələblərə uyğun tərtib edilmiş və **tələbələrin fərdi işləmələri üçün** ltam təchiz edilmişdir.
- **Bütün məşğələ** otaqlarında **multimediya sistemi** quraşdırılmışdır.









# Kafedranın laborator fondu










# Kafedranın tədris fəaliyyətinin istiqamətləri

## ❑ Bakalavr pilləsi üzrə

- Müalicə işi
- Stomatoloq
- Əczaşı
- Hərbi həkim
- Tibbi profilaktika üzrə həkim
- Tibb bacısı

## ❑ Orta tibb təhsili

- Feldşerlər

## ❑ Rezidentura pilləsi üzrə

- «Mikirobiologiya» ixtisası üzrə həkim-mikrobioloq
- «Mikirobiologiya» ixtisası üzrə rotasiyaya gələn digər ixtisaslı həkim

# «Tibbi mikrobiologiya və immunologiya» fənninin fakültələr üzrə tədris proqramı

| PAYIZ SEMESTRİ | | | |
|---|---|---|---|
| **Fakültə** | **Kurs** | **Kredit sayı** | **Saat** |
| Müalicə | III | 4 | 60 |
| İctimai səhiyyə | II | 5 | 66 |
| İctimai səhiyyə | VI | 5 | 76 |
| Stomatologiya | II | 4 | 60 |
| Əczaçılıq | II | 5 | 103 |
| Hərbi tibb | II | 4 | 60 |
| Feldşer kursu | I | 2 | 30 |

| YAZ SEMESTRİ | | | |
|---|---|---|---|
| **Fakültə** | **Kurs** | **Kredit sayı** | **Saat** |
| Müalicə | II | 5 | 70 |
| İctimai səhiyyə | II | 5 | 64 |
| İctimai səhiyyə, Tibb bacısı | II | 3 | 50 |
| İctimai səhiyyə biotexnologiya | III | 3 | 50 |
| Hərbi tibb | II | 4 | 60 |
| Hərbi tibb feldşerlər | I | | |

# Kafedranın tədris yükü və onun bölünməsi

| | Payız semestri | Yaz semestri | Cəmi |
|---|---|---|---|
| **1.Mühazirələr** | **432** | **344** | **776** |
| **2.Təcrübi məşğələ** | **5752** | **4070** | **9822** |
| **3.Məsləhət** | **18** | **15** | **33** |
| **4.İmtahanlar** | **-** | **-** | **-** |
| **5.İmtahan qabağı məsləhət** | **61** | **48** | **109** |
| **6.Dissertantlara rəhbərlik** | **100** | **100** | **200** |
| **7.Rezidentlərə rəhbərlik** | **222** | **223** | **445** |
| **Cəmi** | **6208** | **5531** | **11385** |

İllik dərs yükü kafedranın işçiləri arasında yeni normativə əsasən bölünmüşdür. Belə ki, 17 müəllimə 530 saat dərs yükü verilmişdir, 6 nəfər müəllimə 250 saat dərs yükü verilmişdir (0,5 ştat). Bu normativə uyğun olaraq 10510 saat müəllimlər arasında bölünmüşdür. Bölündükdən sonra 875 saat kafedranın ştatında olan 10 müəllim tərəfindən saat hesabı qaydada yerinə yetirilmişdir. Əlavə olaraq, təkrar dinləmədən dərs saatları 138 saat stomatologiya və 50 saat ictimai səhiyyə fakultəsindən olmaqla 4 əməkdaş tərəfindən yerinə yetirilmişdir.

# Kafedrada tədris prosesinin yüksək keyfiyyətini təmin etmək üçün hazırlıq işləri aparılmışdır:

- Hər fakültə üçün ***sillabusların, tədris proqram və planların*** tərtib edilmiş və kafedaranın metodik komissiyasında müzakirə edilmişdir;
- Müasir ***epidemioloji şəraitə uyğun*** olaraq ***proqramlarda dəyişikliklər*** edilmişdir;
- ***Mühazirə və təcrübə məşğələləri*** dərs yükünə uyğun olaraq müəllimlər arasında ***bölüşdürülmüşdür;***
- Bütün fakultələr üzrə mühazirə və təcrübə məşğələlərin materialları ***prezentasiya şəklində təşkil edilmişdir;***
- ***Tədris-təqvim planlarının*** tərtib olunmüşdur;
- ***İş yerlərinin hazırlanması, hər tələbənin sərbəst iş aparması təmin edlmişdir*****;**
- ***Açıq dəsrlərin cədvəli*** tərtib olunmuşdur (lakin pandemiya ilə əlaqədar olaraq keçirilməmişdir);
- Müəllimlərin ***fərdi iş planlarının*** tərtib edilmişdir;
- Lazım olan ***avadanlıq, ləvazimat və reaktivlərlə təmin*** edilmişdir.

# Tələbələrin biliklərin qiymətləndirilməsi

- Tələbələrin biliklərin qiymətləndirilməsi **həm şifahi olaraq** kafedra müəllimləri tərəfindən, həm də **mərkəzləşdirilmiş şəkildə** test mərkəzində aparılmışdır.
- Belə ki, bütün fakultələrin tələbələri üçün qış və yaz semestrlərində **aralıq və yekun imtahanları** Avropa kredik sisteminə uyğun olaraq mərkəzləşdirilmiş şəkildə test mərkəzində aparılmış, digər 2 yekun məşgələlərdə müəllim tərəfindən sorğu keçirilmiş və nəticələri  ETS sisteminə qeyd olunmuşdurş.
- Test komissiyasının üzvləri olan ekspert müəllimlər tərəfindən bütün fakultələr və hər iki semestr üçün azərbaycan, rus və ingilis dillərində aralıq və yekun imtahan üçün **testlər hazırlanmışdır.**
- Imtahanlar zamanı tələbələr tərəfindən verilən appelyasiya ərizələri imtahan komissiyası tərəfindən ekspert müəllimlərə göndərilmiş və cavablandırılmışdır.

# İmtahan testlərinin hazırlanması

**Test komissiyasının ekspertləri:**

*prof. E.M.Ağayeva,*

*prof. N.A.Ağayeva,*

*dos. H.M.Əliyeva,*

*baş müəl. R.S.Bayramova*

| S/№ | Fakultə | Fənnin adı | Ekspert müəllimlər | Test sayı | | |
|---|---|---|---|---|---|---|
| | | | | Azəri | Rus | İngilis |
| 1 | Müalicə-profilaktika | Tibbi mikrobiologiya və immunologiya -1 | Nigar Ağayeva<br>Həyat Əliyeva<br>Ramilə Bayramova | Yeni hazırlanmışdır<br>100+20 | 100+20 | 100+20 |
| 2 | İctimai Səhiyyə, II kurs | Tibbi mikrobiologiya və immunologiya -1 | Nigar Ağayeva<br>Həyat Əliyeva<br>Ramilə Bayramova | 100+20 | 100+20 | - |
| 3 | İctimai Səhiyyə, III kurs | Biotexnologiya | Emma Ağayeva | Yeni hazırlanmışdır<br>100 | 100 | - |
| 4 | İctimai Səhiyyə, Tibb bacısı | Mikologiya və parazitologiya | Nigar Ağayeva<br>Həyat Əliyeva<br>Ramilə Bayramova | Yeni hazırlanmışdır<br>45 | - | - |
| 5 | Hərbi tibb | Tibbi mikrobiologiya və immunologiya -2 | Nigar Ağayeva<br>Həyat Əliyeva<br>Ramilə Bayramova | Yeni hazırlanmışdır<br>100+20 | - | - |

# Qış imtahan sessiyasında tələbələr aşağıdakı bölmələr üzrə imtahan vermişdirlər:

- ***Müalicə-profilaktika-I və Müalicə-profilaktika-II*** fakultələrinin tələbələri ***«Xüsusi mikrobiologiya»*** bölməsindən;

- ***Əczaşılıq*** fakultələrinin tələbələri ***«Əczaçılıq mikrobiologiyası»*** bölməsindən;

- ***Stomatologiya*** fakultəsinin tələbələri ***«Tibbi mikrobiologiya və ağız boşluğu mikrobiologiyası»*** bölməsindən;

- ***Hərbi tibb*** fakultəsinin tələbələri ***«Təməl mikrobiologiya»*** bölməsindən;

- ***İctimai Səhiyyə*** fakultəsinin III kurs tələbələri ***«Klinik və sanitar mikrobiologiya»*** bölmələrindən;

- ***İctimai Səhiyyə*** fakultələrinin VI kurs tələbələri **«Sanitar mikrobiologiya»** bölməsindən.

# 2021-2022-ci tədris ilinin Qış imtahan sessiyasının nəticələri

| Qruplar | Tələb. ümumi sayı | BALLAR | | | | | | İmt Bur. | İmt gəl | İlkin mən. % | | Key.gös. % | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | A | B | C | D | E | F | | | 2021-2022 | 2020-2021 | 2021-2022 | 2020-2021 |
| I MPF | 347 | 127 | 109 | 58 | 38 | 13 | 1 | 1 | - | 99,71 | 100 | 84,97 | 100 |
| II MPF | 313 | 182 | 62 | 35 | 19 | 5 | 1 | 8 | 1 | 99,67 | 100 | 91,78 | 98,68 |
| HTF II kurs | 27 | 4 | 10 | 8 | 3 | 1 | 1 | - | - | 96,3 | 100 | 81,48 | 100 |
| İS III kurs | 44 | 4 | 18 | 15 | 4 | 1 | - | 2 | - | 100 | 100 | 88,1 | 100 |
| İS VI kurs | 60 | 54 | 5 | - | - | - | - | 1 | - | 100 | - | 100 | - |
| Stomatologiya II kurs | 294 | 95 | 79 | 51 | 38 | 22 | 2 | 4 | 3 | 99,28 | 99 | 77,98 | 99,1 |
| Əczaçılıq II kurs | 121 | 33 | 45 | 22 | 11 | 7 | 1 | - | 2 | 99,16 | 100 | 84,03 | 100 |
| CƏMİ | 1206 | 499 | 328 | 189 | 113 | 49 | 6 | 16 | 6 | 99,16 | 99,8 | 86,91 | 99,63 |

# Yaz imtahan sessiyasında tələbələr aşağıdakı bölmələr üzrə imtahan vermişdirlər:

- ***Müalicə-profilaktika fakültəsinin II kurs*** tələbələri ***«Ümumi mikrobiologiya»*** bölməsindən;
- ***İctimai Səhiyyə fakültələrinin II kurs*** tələbələri ***« Tibbi mikrobiologiya və immunologiya»*** bölməsindən;
- ***İctimai Səhiyyə fakültəsinin III kurs*** tələbələri ***«Biotexnologiya və gen mühəndisliyi»*** bölməsindən;
- ***Hərbi kursantlar (feldşerlər) «Mikrobiologiya»*** bölməsindən;
- ***Tibb bacısı II kurs "Mikologiya və Parazitologiya"*** bölməsindən;
- ***Hərbi tibb fakultəsinin II kurs*** tələbələri ***"Xüsusi mikrobiologiya"*** bölməsindən.

# 2021-2022-ci tədris ilinin Yaz imtahan sesiyasının nəticələri

| Fakultələr | Tələbələrin sayı | BALLAR | | | | | | Bura xil. | Gəlmədi | İlkin.mən.% | | Key.göst., % | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | A | B | C | D | E | F | | | 2021-2022 | 2020-2021 | 2021-2022 | 2020-2021 |
| I MPF | 381 | 175 | 124 | 46 | 23 | 9 | 1 | 3 | - | 99,74 | 100 | 91,27 | 100 |
| II MPF | 427 | 228 | 84 | 68 | 26 | 7 | 2 | 10 | 2 | 99,52 | 100 | 91,57 | 99,68 |
| HTF | 27 | 2 | 5 | 9 | 10 | 1 | - | - | - | 100 | 100 | 59,26 | 100 |
| Feldşer | - | - | - | - | - | - | - | - | - | - | 100 | - | 100 |
| İS II kurs | 64 | 30 | 21 | 6 | 5 | 2 | - | - | - | 100 | - | 89,06 | - |
| İS III kurs (biotexnologiya) | 44 | 28 | 8 | 2 | 3 | 2 | - | 1 | - | 100 | 100 | 88,37 | 100 |
| İS II kurs tibb bacısı (mikologiya və parazitologiya) | 32 | 7 | 18 | 5 | 1 | - | - | - | 1 | 100 | 100 | 96,77 | 100 |
| Cəmi | - | - | - | - | - | - | - | - | - | 99,88 | 100 | 86,05 | 99,95 |

# Bütün tədris ili ərzində kafedrada tədris-metodik işlər aparılmışdır:

- Kafedrada 7 nəfərdən ibarət **metodik komissiya** fəaliyyət göstərir;
- bütün fakültələr üzrə **mühazirələrin və praktik məşğələlərin elektron varinatları** təkmilləşdirilmişdir,
- dünyada və Azərbaycanda **epidemioloji vəziyyəti nəzərə alaraq**, proqramlara **yeni mövzular daxil edilmiş,** mühazirə və praktik məşğələ dərslərinin **materialları yenilənmiş**, mikrobioloji diaqnostikada tətbiq olunan **müasir laborator testlər haqqında məlumat verilmiş**, rəngli illyustrasiya və animasiyalardan ibarət “Power Point” proqramında slaydlar hazırlanmışdır.
- bütün dərs otaqları **tələbələrin fərdi işi üçün** hər praktiki dərsə aid olan **ləvazimatlarla təchiz edilmişdir.** Kafedranın **bütün dərs otaqlarında** təmir olunmaqla bərabər, **kompyuter və proyektorlar** da quraşdırılmışdır ki, slaydların göstərilməsi mümkün olsun.
- COVİD-19 pandemiyasının davam etməsilə əlaqədar mühazirələrin “online” keçirilməsi məcburiyyəti yaranmışdır, lakin yaz semestrinin VI həftəsindən etibarən (29.03.2022) canlı olaraq davam etdirilmişdir. Dərslərin pandemiya dövründə aparılması səbəbdən tələbələrə mühazirə və məşğələdərsləri üçün istifadə edilən **bütün materiallar azərbaycan, rus və ingilis dillərində** PPT, PDF şəklində hazırlanıb, **ATU-nun saytında,** eləcə də dərslərin vidioyazısı **youtube-da** yerləşdirilmişdir.

# Dərsliklərin nəşri

- ***Dərslik*** ***– Emma Ağayeva, Vidadi Nərimanov, Akif Qurbanov «МИКРОБИОЛОГИЯ И ИММУНОЛОГИЯ», 2022,*** (dərslik –rus dilində) nəşr edilmişdir.




- ***Dərslik*** **– Mehman Əliyev «MİKROORQANİZMLƏRİN EKOLOGİYASI VƏ SANİTAR MİKROBİOLOGİYA»** dərslik, Bakı, 2022




- ***Dərslik*** **– Mehman Əliyev, Fəxrəddin Şıxəliyev «ÜMUMİ MİKROBİOLOGİYA VƏ İMMUNOLOGİYA»** dərslik, Bakı, 2022



# Tələbə elmi cəmiyyətinin işi

28-29 aprel 2022-ci il tarixlərində TEC– in konfransında aşağıda qeyd olunmuş məruzələrlə çıxış etmişlər.

| S/№ | Fakultə, kurs. qrup | Tələbələrin adı, soyadə | Elmi işin adı | Elmi rəhbər | Mükafat |
|---|---|---|---|---|---|
| 1 | Stomatologiya fakültəsi, Qr.420R-1a | Pənahova Fatimə, İsrafilova Aynur | Значение микробиомы ротовой полости в патогенезе парадонтита | prof. Emma Ağayeva | **diplom** |
| 2 | İctimai Səhiyyə fakültəsi, V kurs, Qr.617A1 | Allahverdiyeva Dilşad | Ağız boşluğu kandidozunun mikrobioloji və immunoloji aspektləri | professor Ağayeva Nigar | **diplom** |
| 3 | I Müalicə profilaktika fakültəsi, IVkurs, Qr.118A-12b | Aslanlı Yusif | Covid - li xəstələrin qan nümunələrindən izolə edilmiş mikroorqanizmlərin antibiotiklərə qarşı həssaslığının öyrənilməsi | dosent Sara Qurbanova | **diplom** |
| 4 | II Müalicə profilaktika fakültəsi, Qr.219R-1b | Bayramlı Fərid | Определение флуконазоловой резистентности штаммов Candida методом диск-диффузии | assistent Ravil Hüseynov | **diplom** |
| 5 | I Müalicə Profilaktika fakültəsi, II kurs, Qr. 120R 2a | Əliyeva F.B., Abdullazadə Ş.Q. | Онколитические вирусы-революция в мире онкологии | baş müəl. Bayramova Ramilə | **diplom** |
| 6 | I Müalicə Profilaktika fakültəsi, II kurs, Qr. 120R 2a | Əhmədov Nicat Şahmar | Роль микоплазм в развитии раковых заболеваний | baş müəl. Bayramova Ramilə | **diplom** |
| 7 | II Müalicə Profilaktika fakültəsi, Qr.220A 2b | Muxtarov Fərid X. | Covid-19 virus infeksiyasının klinik və diaqnostik aspektləri | baş müəl.Mansurova Hafizə | **diplom** |
| 8 | II Müalicə Profilaktika fakültəsi, Qr.219A-1b | Alpaşayev Rəşad | Covid-19 virusunun müxtəlif yaş qrupları arasında müqayisəli təhlili | baş müəllim Süleymanova Təranə | **diplom** |
| 9 | İctimai Səhiyyə fakültəsi, II kurs, Qr. 320A-2a | Sahratlı Məltəm, Rəhmanlı Fidan | Bakteriyalara antibiotiklərin və Geranium fitopreparatının təsirinin müqayisəli öyrənilməsi | baş müəllim Baxışova Yeganə | **diplom** |

**TEC-in işində fəal işrirakıma görə kafedranın əməkdaşları: professorlar Əliyev Mehman, Emma Agayeva, Gülər Seyidova, Nigar Ağayeva, dosent Sara Qurbanova, baş müəllimlər Bayramova Ramilə, Mansurova Hafizə, Süleymanova Təranə, Baxışova Yeganə və assistent Ravil Hüseynov diplomlarla mükafatlandırılmısdırlar.**

# Elmi-tədqiqat işləri

❖Kafedranın **elmi planına uyğun olaraq**, hesabat ilində elmi-tədqiqat işləri **"Klinik əhəmiyyətli mikroorqanizmlərin antimikrob preparatlara qarşı rezistentliyinin tədqiqi"** adlı mözvunun daxilində 2 elmi iş üzrə aparılmışdır:

➢2021-ci ilin son 6 ayı ərzində ***«Mədə-bağırsaq traktı infeksiyalarının törədicilərində antimikrob preparatlara qarşı rezistentliyin fenotipik və genotipik xüsusiyyətlərinin öyrənilməsi»*** mövzusu,

➢2022-ci ilin ilk 6 ayı ərzində isə ***«Mərkəzi sinir sistemi (MSS) infeksiyalarinin törədicilərində antimikrob preparatlara qarşi rezistentliyin fenotipik və genotipik xüsusiyyətlərinin öyrənilməsi"*** mövzusu üzrə.

.

❖Plandan əlavə aparılan işlər - ***yeni sintez olunmuş efir yağları və kimyəvi maddələrin antimikrob təsirlərinin öyrənilməsi.***

❖ Plandan əlavə aparılan işlər - ***kafedaranın doktorant və dissertantların elmi işləri.***

# Tədqiqatın material və metodları

- Bakı şəhərinin müxtəlif klinikalarından **mədə-bağırsaq traktı və mərkəzi sinir sistemi infeksiyaları** olan xəstələrdən götürülmüş klinik materiallar (nəcis, onurğa beyin mayesi, qan, bioptat və s.) **mikroskopik, kultural, immunoloji və molekulyar-genetik üsullarla** müayinə edilmişdir. Tədqiqatlar kafedranın elmi-tədqiqat laboratoriyasında, ATU-nun Tədris Terapevtik və Tədris Cərrahiyyə Klinikalarının Mərkəzi laboratoriyalarında, Referans Klinik Laboratoriya Mərkəzində, Panacea Mikrobioloji Laboratoriyasında kafedranın əməkdaşları və doktorantları tərəfindən aparılmışdır.
- Müxtəlif patoloji materiallardan izolə edilmiş **törədicilərin identifikasiyası** ümumi qəbul edilmiş və müasir üsullarla (*Mass spektrometr Autiflex III MALDİ TOF-MS* analiz) aparılmışdır. Əldə edilmiş **ştamların antimikrob preparatlara həssaslığı disk-diffuziya üsulu, E-test, VİTEC analizatorunda və molekulyar genetik üsullarla öyrənilmişdir.** Xəstələrin **immun sisteminin vəziyyətinin öyrənilməsi** üçün qan zərdabında anticisimlərin və sitokinlərin miqdarı immunferment analiz üsulu ilə təyin edilmişdir.

# Elmi yeniliyi

- Bakı şəhərinin müxtəlif klinikalarında olan xəstələrin **mədə-bağırsaq infeksiyalarının** etioloji strukturu öyrənilmiş və dominant törədicilər aşkar edilmişdir. Müəyyən edilmişdir ki, mədə-bağırsaq infeksiyalarının əsas törədiciləri ***Escherichia coli, Pseudomonas aureginosa, Salmonella enteritidis, Klebsiella, Staphylococcus aureus, Proteus mirabilis, Candida albicans*** olmuşdur.
- Klinik əhəmiyyəti olan mikroorqanizmlərin antibiotiklərə həssaslığı yoxlanılmışdır. Məlum olmuşdur ki, izolə edilən *21 Staphylococcus autreus* ştamlarından ***5 ştam metisillinə rezistent (MRSA),*** 95 *Escherichia coli* ştammlarından **32 ştamm geniş spektrli beta-laktamazaya**, *42 Klebsiella* spp. ştammlarından **2 stamm karbapenemə, 8 ştamm geniş spektrli β-laktamazaya**, 24 *Proteus* ştammlarından ***9 ştamm geniş spektrli beta-laktamazaya,*** *17 Pseudomonas aureginosa* ştammlarından **3 ştam geniş spektrli beta-laktamazaya rezistent olmuşdur.**
- MİC/ETEST-in nəticələrinə əsasən ***50 H.pylori*** **ştammlarından 4–ündə klaritromisin və amoksasilinə rezistentlik** müşahidə edilib, tetrasiklin, metronidazol, rifampisin və levofloksasinə həssaslıq göstərilmişdir.
- **Meningit diaqnozu** qoyulmuş 3 xəstədən götürülmüş patoloji materialda (likvorda) **S.aureus, C.albicans, Actinomyces spp.** izolə edilmişdir. Alınmış bakteriya ştammlarının antibiotiklərə həssaslığı təyin edilərək, məlum olmuşdur ki, izolə edilmiş S.aureus ştammları, əsasən rifampisinə, imipenemə və gentamisinə həssaslıq göstərmişlər.

# Plandan kənar elmi-tədqiqat işi

## Mövzu: *“Müxtəlif bitki mənşəli və kimyəvi maddələrin antimikrob xüsusiyyətinin öyrənilməsi”*

Azərbaycan Milli Elmlər Akademiyasının Elmi-Tədqiqat Mikrobiologiya, Elmi-Tədqiqat Botanika və Elmi-Tədqiqat Polimer Materiallar İnstitutları, Elmi-Tədqiqat Kimya İnstitutunun Sumqayıt filialı, Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu, Türkiyənin Yıldız-Texnik universitetinin biotexnologiya və biomühəndislik şöbəsi, Azərbaycan Tibb Universitetinin Umumi və toksikoloji kimya, Əczaçılıq texnologiyası və idarəçiliyi, Əczaçılıq kimyası və farmokoqnoziya, Biofizika və Bioüzvü kimya kafedraları tərəfindən təqdim edilmiş çoxsaylı **efir yağları və yeni sintez olunmuş kimyəvi maddələrin antimikrob təsiri** öyrənilmişdir.

Aparılan tədqiqatların nəticələri aktlar, tezislər və məqalələr formasında yekunlaşdırılmışdır.

# Çap olunmuş elmi işlər - 85

**Məqalə 26: xarici- 3 (İF - 1; İndex – 1; İssue – 1); daxili - 23;**
**Tezis – 58: xarici – 20; daxili – 38;**
**Dərslik - 1**

| Dərslik | Metodik göstəriş | Məqalə | | Tezis | | Cəmi |
|---|---|---|---|---|---|---|
| | | xaricdə | daxildə | xaricdə | daxildə | |
| 1 | - | 3 | 23 | 20 | 38 | 85 |

# Müəlliflərin əsərlərinə olan istinad indeksləri

| S/№ | AS | h-İndex | | |
|---|---|---|---|---|
| | | Web of Science | Scopus | Scolar |
| 1 | Qədirova Həqiqət | 2 | 2 | 6 |
| 2 | Ağayeva Emma | | 3 | 6 |
| | Ağayeva Nigar | | | 2 |
| 3 | Qurbanov Akif | 3 | | |
| 4 | Bayramlı Ramin | | 1 | |
| 5 | Əliyeva Həyat | 3 | 2 | 2 |
| 6 | Qurbanova Sara | | | 1 |
| 7 | Vidadi Nərimanov | | | 3 |
| 8 | Novruzova Mətanət | | 2 | 3 |
| 9 | Baxışova Yeganə | | | 1 |
| 10 | Bayramova Ramilə | | 1 | |
| 11 | Muradova Sevda | | 2 | 3 |
| 12 | Süleymanova Təranə | | | 1 |
| 13 | Talıbova Cəmilə | | | 3 |
| 14 | Qasımova Məryəm | | | 1 |
| 15 | Hüseynov Ravil | 1 | 1 | 1 |

# Beynəlxalq əlaqələr, elmi şuralarin və cəmiyyətlərin işində iştirak (1)

- **Professor Qədirova H.Ə. -** Beynəlxalq Ekoenergetik akademiyasının “Biomedicine” ixtisası üzrə müxbir-üzvü; Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Cəmiyyətinin (ESCMID European Society of Clinical Microbiology and Infectious Diseases) üzvü; Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Surasının sədr müavini; Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyəti yanında Tibbi Elmi Komitənin üzvü; Azərbaycan mikrobioloq və epidemioloqlar cəmiyyətinin üzvü; Azərbaycan immunoloq və allerqoloqlar cəmiyyətinin üzvü; İctimai Səhiyyə fakultəsinin Elmi Şurasının üzvü.
- **Professor Ağayeva E.M.** - AMEA–nın Problem Şurasının üzvü; Mikrobiologiya və immunologiya, epidemiologiya və yoluxucu xəstəliklər üzrə Problem Komissiyasının sədrinin müavini; Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Cəmiyyətinin (ESCMID) üzvü; Tibbi mikrobioloqlar və immunoloqlar cəmiyyətinin üzvü.
- **Professor Ağayeva N.A. -** Azərbaycan Mikrobioloqlar və İmmunoloqlar Cəmiyyətinin üzvü; İctimai Səhiyyə Fakultə Elmi Şurasının üzvü; Amerika Mikrobioloqlar Cəmiyyətinin üzvü; İnfeksiya sahəsində Rusiya Federasiyasının ekspertlər birliyinin üzvü; Avropa İnfeksion Xəstəliklər Mikrobioloqlar Assosiasiyasının üzvüdür.
- **Professor Əliyev M.H.** -İctimai Səhiyyə fakultəsinin Elmi Şurasının üzvüdür. Kafedranın elmi-tədqiqat işləri üzrə məsul icraçı.
- **Professor Qurbanov A.İ. -** Dövlət İmtahan Mərkəzində rezidenturaya qəbul imtahanlari üzrə eksper; 2020-ci ilin aprel ayından etibarən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyəti yanında Tibbi Elmi Komitənin sədri; İnfeksiya Nəzarəti üzrə Avropa Komissiyasının (EUCIC) Rəhbər Komitəsinin (*the EUCIC Steering Committee*)Azərbaycan üzrə nümayəndəsi.
- **Professor Seyidova G.M. -** Milli Elmlər Akademiyasının Mikrobiologiya İnstitutunun Dissertasiya Şurasının üzvü, Seminar iclasının sədri; Tibbi mikrobioloqlar və immunoloqlar cəmiyyətinin üzvü; Milli Elmlər Akademiyasının Mikrobiologiya İnstitutunun toplusunun redkollegiyasının üzvü; Amerika Mikrobioloqlarının Assosiasiyasının üzvü (ASM).

# Beynəlxalq  əlaqələr, elmi şuralarin və cəmiyyətlərin işində iştirak (2)

- **Dosent Əliyeva H.M.** - Kafedranın Tədris hissə müdiri; kafedrada appelyasiya ekspert komissiyasının üzvü, İctimai Səhiyyə fakultəsinin Elmi Şurasının üzvü; “World Health Organization“ ın Azərbaycanda işçi qrup nümayəndəsi; Referans Klinik Laboratoriya Mərkəzi»ndə məsləhətçi həkim (0,25 ştat), Analitik Ekspertiza Mərkəzində klinik ekspert; Əhalinin Maarifləndirməsinə Mütəxəssislərin Dəstəyi ictimai birliyinin üzvü; Amerika Mikrobioloqlar Cəmiyyətinin üzvü; İnfeksiya sahəsində Rusiya Federasiyasının ekspertlər birliyinin üzvü; Avropa İnfeksion Xəstəliklər Assosiasiyasının üzvü.
- **Dosent Bayramlı R.B. -** TƏBİB-in idarə heyyətinin sədri, Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Cəmiyyətinin (ESCMID) (2013); Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Cəmiyyətinin "ESGTIM" Elmi tədqiqat qrupunun; DAS dərnəyinin; (Türkiyə  2011) ANKEM dərnəyinin (Türkiyə 2007) üzvüdür  və Antibiotik siyasəti qrupunun Azərbaycan üzrə təmsilçisidir;
- **Dosent Cavadov S.S. -** Universitetin Tədris Şöbəsinin müdiri, Böyük Elmi Şuranın, Rektorluq Şurasının üzvü, Amerika mikrobioloqlar cəmiyyətinin (American Microbiology Sociaty- ASM)- Premium üzvlük № 56836588, Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Cəmiyyətinin (ESCMID) üzvü (ID: 135261). Approbasiya Şurasının üzvü. Amerika Mikrobioloqlar Cəmiyyətinin (ASM) Azərbaycan üzrə ölkə təmsilçisi (ASM Country Ambassador to Azerbaijan) seçilmişdir.
- **Dosent Qurbanova S.F. -** Kafedra Tələbə Elmi Cəmiyyətinin sədri; Dövlət İmtahan Mərkəzində rezidenturaya qəbul imtahanlari üzrə ekspert.
- **Baş müəllim Hacısoy Y.V.** - Dövlət İmtahan Mərkəzində rezidenturaya qəbul imtahanlari üzrə ekspert.

# Beynəlxalq və yerli sazişlərə əsasən aparılan elmi-tədqiqat işləri

**Kafedra müdiri Həqiqət Qədirova** Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında bağlanmış sazişə əsasən 2019-2021-ci illərdə infeksion xəstəliklərin öyrənilməsi və mütəxəssislərinin hazırlanması üzrə elmi tədqiqat işlərinin elmi koordinatoru olaraq, İİV/QİÇS-in və digər infeksion xəstəliklərin yayılmasının qarşısının alınması ilə bağlı 4 elmi proqram üzrə 2020/2021-ci ildə aparılan elmi-tədqiqat işlərinə rəhbərlik etmişdir.

# Qrantlar əsasında görülən işlər

**Kafedra müdiri Həqiqət Qədirova** İİV/QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fond tərəfindən Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutuna ayrılmış grant hesabına 2021-2023 illəri əhatə edən "Azərbaycanda Əsas ÇDD/GDD Vərəm Xidmətlərinə Çıxış İmkanının və onların Keyfiyyətinin Təmin Olunması" adlı layihə çərçivəsində 2020-ci ildə və 2021-2023-cü illəri əhatə edən "Azərbaycan Respublikasında yüksək riskə məruz qalan əhali qrupları üçün milli imkanların, profilaktika və müalicə xidmətlərinin gücləndirilməsi vasitəsilə İİV epidemiyasına qarşı cavab tədbirlərinin genişləndirilməsi və zəruri ÇDD/GDD Vərəm xidmətlərinə çıxışın və keyfiyyətinin davamlığının təmin edilməsi" adlı layihə çərçivəsində 2021-ci ildə ölkədə çoxsaylı dərmanlara davamlı (ÇDD) və geniş saylı dərmanlara davamlı (GDD) vərəm xəstələrinin müayinə, müalicə və dəstəyi ilə bağlı aparılan işlərə rəhbərlik etmişdir.

# Konfranslarda çıxışlar

**Prof. Həqiqət Qədirova**

- 8 oktyabr 2021-ci il tarixində ATU-da keçirilən əməkdar elm xadimi, prof. T.Ə.Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Təbabətin aktual problemləri-2021" adlı beynəlxalq elmi-praktik Konqresin panel sessiyasına sədrlik və "Azərbaycanda vərəm üzrə epidemioloji vəziyyət və mübarizə tədbirləri" mövzusunda məruzə ilə çıxış
- 25 fevral 2022-ci il tarixində ATU-da Rusiyyə Rederasiyasının Terapevtik Cəmiyyəti ilə birgə keçirilən "Диалоги о внутренней медицине" adlı elmi-praktik konfransda "Ко-инфекция туберкулёз и COVID-19" mövzusunda məruzə ilə çıxış

**Dos. Həyat Əliyeva**

- INTERNATIONAL BLACK SEA COASTLINE COUNTRIES SYMPOSIUM. Assos.Prof. Dr. Hayat Aliyeva, Dr.Gultakin Bayramova SIDE EFFECTS OF HELICOBACTER PYLORI THERAPY AND THE ROLE OF ANTIBIOTIC SUSCEPTIBILITY TESTING IN TREATMENT, April 28-30, 2021, Giresun, TURKEY (***online***)
- The coronavirus pandemic: DIAGNOSIS, TEATMENT AND CONSEQUENCES. "STUDY OF HELICOBACTERIOSIS IN PATIENTS WITH COVID-19", June 2-3, 2021. Baku

# Konfranslarda iştirak

Kafedranın bütün müəllimləri yerli və xarici konfrans, kongress və seminarlarda iştirak etmişdilər.

# Dissertasiya işlərinin müzakirəsində iştirak

Hesabat dövründə professor Həqiqət Qədirova aşağıdakı dissertasiya işlərinin müzakirəsində iştirak etmişdir:

- ❖01.04.2022-ci il tarixində ATU-nun BED 2.06/3 Birdəfəlik Dissertasiya şurasının iclasında Rəşad Fərhad oğlu Şolanın "İnterstisial sistitin/ağrılı sidik kisəsi sindromunun modelləşdirilməsi, etiopatogenezində multifaktorial amillərin araşdırılması və diaqnostik biomarkerlərin rolunun öyrənilməsii" mövzusunda "3234 – Urologiya" və "3243.01 – "Patoloji fiziologiya" ixtisaslarında tibb üzrə elmlər doktoru elmi dərəcəsini almaq üçün təqdim etdiyi dissertasiya işinin müdafiəsində rəsmi opponent kimi rəy vermiş və müdafiədə iştirak etmişdir.
- ❖09.06.2022-ci il tarixində ATU-nun BED 2.06/4 Birdəfəlik Dissertasiya şurasının iclasında Ellada Qoşqar qızı Sarıyevanın "B, C virus hepatitləri olan hamilələrdə xəstəliyin klinik-patogenetik və terapevtik aspektləri" mövzusunda 3215.01 – "Mamalıq-ginekologiya" və 2420.01 – "Virusologiya" ixtisaslarında tibb üzrə elmlər doktoru elmi dərəcəsini almaq üçün təqdim etdiyi dissertasiya işinin rəsmi müdafiəsində iştirak etmişdir.

# Kadr hazırlığı üzrə işlər

***Kafedrada 5 nəfər doktorluq dissertasiyası üzərində işləyir:***

- Dosent Samir Cavadov
- Dosent Ramin Bayramlı
- Dosent Həyat Əliyeva
- Baş müəllim Sevda Muradova
- Baş müəllim Hacısoy Yavər

***4 nəfər doktorantura üzrə fəlsəfə doktoru elmi iş yerinə yetirir:***

- Hüseynov Ravil, Elmi rəhbər: t.ü.f.d., dos. S.S.Cavadov – ilkin müzakirədən keçib
- Hacızadə Səmra, Elmi rəhbər: t.ü.e.d., prof. A.İ.Qurbanov
- Taqiyeva Nuranə, (analıq məzun.) Elmi rəhbər: t.ü.f.d., dos. S.S.Cavadov
- Səmədova Könül, (analıq məzun.) Elmi rəhbər: t.ü.f.d., dos. V.Ə.Nərimanov

***8 nəfər dissertantura üzrə fəlsəfə doktoru elmi iş yerinə yetirir:***

- Qasımova Məryəm, Elmi rəhbər: prof. A.İ.Qurbanov – ilkin müzakirədən keçib;
- Qarayev Zaur, Elmi rəhbər: t.e.d., prof. A.İ.Qurbanov;
- Hüseynova Rəna, Elmi rəhbər: t.e.d., prof. Z.Ö.Qarayev – ilkin müzakirədən keçib;
- İbayeva Şahnisə, Elmi rəhbər: t.e.d., prof. M.H.Əliyev – ilkin müzakirədən keçib;
- Əliyeva Mətanət, Elmi rəhbər: t.e.d., prof. M.H.Əliyev– ilkin müzakirədən keçib;
- Məmmədova Ruhəngiz, Elmi rəhbər: b.e.d., prof. E.M.Ağayeva;
- Hüseynova Nərgiz, Elmi rəhbər: b.e.d., prof. N.A.Ağayeva
- Zöhrabova Kübra, Elmi rəhbər: b.e.d., prof. N.A.Ağayeva

# Rezidentlərin hazırlanması

**2021-2022-ci tədris ilində "Tibbi mikrobiologiya və immunologiya" kafedrasında 11 rezident olmuşdur.**

## *I kurs*

- Hüseynov Bafadar Ruhim oğlu – prof. Qədirova Həqiqət
- Talıbova Günel Saleh qızı - dos. Cavadov Samir
- Məmmədova Əfsanə Məzahir qızı - dos. Əliyeva Həyat
- Məmmədova Mətanət Eldar qızı – baş müəl. Hacıyeva Səidə

## *II kurs*

- Quliyeva Aygül Nəzirməmməd – dos Əliyeva Həyat
- Babaşova Mafizət Eldəniz – prof Əliyev Mehman
- Muxtarova Günel İlqar – dos Cavadov Samir
- Əliyeva Səidə Yusif – dos Zeynalova Səidə
- Əskərzadə Ülfət Rauf – prof Qədirova Həqiqət
- Hümbətova Vəfa Norəs – prof Ağayeva Nigar
- Hacızadə Səbinə Cavanşir – dos Nərimanov Vidadi

***Rezidentlərlə 445 saat dərs yükü yerinə yetirilmişdir: 20 saat mühazirə, 425 saat məşğələ.***

# Səhiyyə müəssisələrinə elmı-təcrübi kömək

**Professor H.Ə.Qədirova**

- Elmi-Tədqiqat Ağciyər xəstəlikləri İnstitutunun profilinə uyğun olaraq, vərəm infeksiyası olan, eləcə də ağciyərlərin digər infeksion və qeyri-infeksion xəstəlikləri olan xəstələrə konsultativ və müalicəvi yardım göstərmiş;
- Səhiyyə Nazirliyi nəzdində fəaliyyət göstərən “B və C viruslu hepatitlərin profilaktikası, diaqnos tikası və müalicəsinin təşkili üzrə Komissiya”nın üzvü olaraq, müraciət edən xəstələrin qəbulunda, onlara diaqnostika və müalicə təyinati ilə bağlı müzakirələrdə iştirak etmiş;
- TƏBİB-in nəzdində fəaliyyət göstərən Elmi komitənin üzvü kimi Covid-19 infeksiyası ilə bağlı və digər məsələlərin müzakirəsində və yekun sənədlərin tərtibatında iştirak etmişdir.

**Dosent Əliyeva H.M.**

- Referans Klinik Laboratoriya Mərkəzi»ndə məsləhətçi həkim,
- Analitik Ekspertiza Mərkəzində klinik ekspert.

**Baş müəllim Cəmilə Talıbova**

- Uşaq Bərpa Müalicə Mərkəzinin baş həkimi olaraq, nevroloji xəstələrin və somatik xəstələrin (uşaq serebral iflici, pleksit, genetik xəstəliklər zamanı iflic) reabilitasiya işinin təkmilləşməsində iştirak etmişdir.

**Baş müəllim Yavər Hacısoy**

- COVID-19 pandemiyası ilə mübarizədə istər ATU TCK-da laboratoriya müdiri kimi, istərsə də Respublikada yeni molekulyar laboratoriyaların qurulmasında yaxından iştirak etmişdir;
- Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən ATU-ya daxil olmuş məktuba əsasən cəbhəboyu xəstəxanalara ezam olunmuş və xəstəxanaların monitorinqi məqsədilə işçi qrupun tərkibində iştirak etmişdir.

# Həmkarlar təşkilatinin işi

- Kafedranın baş müəllimi, İctimai Səhiyyə Fakültəsinin Həmkarlar Təşkilatının sədri, Universitet üzrə Həmkarlar Komitəsi Rəyasət Heyətinin üzvü Səidə Hacıyeva Azərbaycan Tibb Universitetində 25 may 2022-ci ildə Şuşanın 270 illiyinə həsr olunmuş tədbirin təşkilatçısı olmuşdur.
- Hesabat ilində kafedranın həmkarlar təşkilatı tərəfindən şəhid və qazı həkimlərin ailə üzvlərinə dəfələrlə baş çəkilmiş və yardım göstərilmişdır.



# Mükafatlar

**Professor Həqiqət Qədirova** - 2021-ci ildə Nizami rayon YAP təşkilatı tərəfindən Fəxri Fərman.

**Professor Nigar Ağayeva** – 2021-ci ildə ATU-nun Tələbə Gənclər Təşkilatının, Azərbaycan Tələbə Gənclər təşkilatları ittifaqının (ATGTİ) təşəbbüsü və ATU rəhbərliyinin dəstəyilə "Rezidenturaya birlikdə hazırlaşaq" layihəsində aktiv şəkildə iştirakına, tələbələrin suallarını hərtərəfli şəkildə cavablandıran müəllim ekspertl kimi “Təşəkkürnamə” “Təşəkkürnamə” ilə mükafatlandırılmışdır

**Dosent Sara Qurbanova** - 09.02.2022-ci il tarixində ATU-nun rektoru professor Gəray Gəraybəyli tərəfindən universitetimizin Beynəlxalq Akkreditasiya prosesinə hazırlıq və proqramların özünütəhlil hesabatlarının hazrlanmasında fəal iştirakına görə “Təşəkkürnamə” ilə mükafatlandırılmışdır

**Baş müəllim Cəmilə Talıbova** - 2021-ci ildə Bakı şəhəri Nərimanov rayonu İcra Hakimiyyəti tərəfindən Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə, əhalinin sağlamlığının qorunması istiqamətində səmərəli fəaliyyətinə, Nərimanov rayonunun ictimai-siyasi həyatında fəal iştırakına görə “Fəxri Fərman” la təltif olunmuşdur.

**Baş müəllim Səidə Haçıyeva** - Respublika Həmkarlar Komitəsinin fəxri fərmanı və mükafatına layiq görülmuşdür.

**Laborant Vəfa İsgəndərova** - 09.02.2022-ci il tarixində ATU-nun rektoru professor Gəray Gəraybəyli tərəfindən universitetimizin Beynəlxalq Akkreditasiya prosesinə hazırlıq və proqramların özünütəhlil hesabatlarının hazrlanmasında fəal iştirakına görə “Təşəkkürnamə” ilə mükafatlandırılmışdır

Diqqətinizə görə təşəkkür edirəm